Azərbaycan.- 2021.- 21 aprel. S. 10.

# Xırdalanda 6 şəhidin xatirəsinə bulaq kompleksi tikilib





Xırdalan şəhərinin 27-ci məhəlləsindəki 17 saylı binanın həyətində 6 Vətən müharibəsi şəhidinin xatirəsini əbədiləşdirmək məqsədilə abidə-bulaq kompleksi inşa edilib.

Kompleksin açılışında Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova bildirib ki, kompleks eyni məhəllədə böyüyən və ya müəyyən müddətdə orada yaşayan 6 abşeronlu qəhrəmanın xatirəsinə ucaldılıb. Ərazidə abad məhəllə yaradılıb, 2 söhbətgah quraşdırılıb, mini-park salınıb, həmişəyaşıl gül kolları və müxtəlif növ ağaclar əkilib. Binanın həyəti asfaltlanıb, ərazi abadlaşdırılıb.

Daha sonra şəhid ailələri ilə görüşən İ.Gülməmmədova onların qayğıları və problemləri ilə maraqlanıb. Azərbaycan igidlərinin öz müqəddəs borclarını yerinə yetirərkən şəhidlik zirvəsinə yüksəldiyini vurğulayan İ.Gülməmmədova qeyd edib ki, məhz onların və ümumilikdə Azərbaycan Ordusunun, hərbçilərimizin döyüş əzmi və Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində vətənimiz bütövlüyünə qovuşub. Şəhidlərimizin öz qanı ilə torpaqlarımızı işğaldan azad etdiyi 2020-ci il həm də həmrəylik, mübarizlik ili kimi tarixdə qalacaq. Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə şəfa diləyən İ.Gülməmmədova ölkəmizdə dövlət səviyyəsində şəhid ailələrinə və müharibə iştirakçılarına göstərilən diqqət və qayğıkeşlikdən danışıb.

Sonra məktəblilər şəhidlərə həsr olunan şeirlər səsləndiriblər.

Sonda şəhidlərimizin ruhuna dualar oxunub.

***A.ƏLİYEV,***
***"Azərbaycan"***